1_Layout 1 27.02.2018 10:48 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 04 (520)

28 fevral 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANIM MƏRASİMİNDƏ İŞTİRAK EDİB

Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

**AZƏRTAC** xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.




İnsanlığa qarşı törədilmiş bu cinayət aktı - Xocalı faciəsi beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

## BƏŞƏRİYYƏTİN ƏN DƏHŞƏTLİ FACİƏSİ...

*"Əgər Xocalı faciəsi bir tərəfdən erməni işğalçılarının vəhşiliyinin nəticəsi olubsa, ikinci tərəfdən də bizim dövlət orqanlarının, o vaxt respublikaya rəhbərlik edən səlahiyyətli şəxslərin etdiyi cinayətlər nəticəsində və hətta deyə bilərəm, xəyanətlər nəticəsində olubdur. Ona görə də biz bu soyqırımı pisləmək, ermənilərin bu vəhşiliyini dünyaya göstərmək, yaymaq, onları bir vəhşi kimi ifşa etməklə yanaşı, eyni zamanda, özümüzün-özümüzə etdiyimiz cinayəti, xəyanəti də aşkar etməliyik".*

**Milli Lider Heydər Əliyev**




Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-dan etibarən şəhərə aparan bütün avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı.

1992-ci il fevralın ikinci yarısından Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmış və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya üç istiqamətdən hücum aparıldığından, əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyitlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxardılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlı uşaqların sinəsi yarılıb ürəkləri parçalanmış, əksər meyitlər isə tikə-tikə doğranmışdır.

**Xocalı soyqırımının qanlı statistikası belədir:**

Hücum zamanı şəhərdə olmuş 3 min nəfərdən 613-ü, o cümlədən, 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər (76-sı uşaq) ağır yaralanıb, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb, 150 nəfərin taleyi hələ də məlum deyil. Səkkiz ailə tamamilə məhv edilib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər.

### ŞAHİD İFADƏLƏRİNDƏN:

**Qaradağlı sakini İlqar Əliyevin açıqlaması:**

"Ermənilər Qaradağlını tutandan sonra əsir və girov götürdükləri kənd sakinlərindən 33 nəfəri öldürdülər. Sonra öldürdükləri qadın və uşaqların cəsədlərini kənd yaxınlığındakı Bəylik bağı adlanan yerdə "silos" quyusuna töküb, üzərini torpaqladılar...

Mənimlə birlikdə yüzdən artıq Qaradağlı kənd sakini girov götürülmüşdü. Yolda dəhşətli işgəncələrlə qarşılaşdıq. Bizi əvvəlcə Lingin kəndinə gətirdilər. Orada üç nəfəri, Malıbəylidə isə 12 nəfəri güllələdilər...

Ermənilər fevralın 26-da Xocalını işğal edəndə Xankəndidə həbsxanada idim. Həmin gün ermənilər yüzdən artıq adamı bu həbsxanaya gətirdilər. Sonra bildim ki, onlar Xocalı sakinləridir və bu şəhər də işğal olunub. Səhəri gün gözümün qabağında 60-a yaxın Xocalı sakininin başını kəsdilər. Onların arasında uşaq və qadınlar da var idi".

**Heydərov Camal Əbdülhüseyn oğlu:**

"Qara qaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyiti var idi. Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyitləri isə tikə-tikə doğramışdılar".

**Heydərov Şahin Zülfüqar oğlu:**

Naxçıvanik kəndi yaxınlığında 80-ə yaxın meyit gördüm. Meyitlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdi. Milis mayoru Əlif Hacıyev, yaxın qohumları Səlimov Fəxrəddin, Səlimov Mikayıl da qətlə yetirilənlər arasında idi".

**Kərimova Səidə Qurban qızı:**

"12 nəfərlə birlikdə girov götürüldük. Ermənilər qızım Nəzakəti, Tapdığı, Səadəti, İradəni işgəncə ilə öldürmüşlər".

**Qaradağlı sakini Oruc Əliyev:**

"Məni fevralın 17-də əsir götürdülər. Yolda qohumlarımın yarısını öldürdülər. Xankəndidəki həbsxanada isə dişlərimi zorla çəkdilər. Martın 17-də Allahverdi Bağırovun köməkliyi ilə dəyişdirildim.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri həmin günə qədər bir dəfə də olsun xəstəxanaya gəlmədilər".

### SOYQIRIMA DAİR DÜNYA MƏTBUATINDAN ÇIXARIŞLAR

**Krua "Eveneman" jurnalı** (Paris), 25 fevral 1992-ci il. "Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar çoxlu sayda ölənlər barədə xəbər verirlər".

**"Sandy Tayms" qəzeti** (London), 1 mart 1992-ci il. "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər".

**"Faynenşl Tayms" qəzeti** (London), 9 mart 1992-ci il. "Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar".

**"Tayms" qəzeti** (London), 4 mart 1992-ci il. "Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır".

**"İzvestiya" qəzeti** (Moskva), 4 mart 1992-ci il. "Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür".

**"Faynenşl Tayms" qəzeti** (London), 14 mart 1992-ci il. "General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır".

**"Le Mond" qəzeti** (Paris), 14 mart 1992-ci il. "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır".

**"İzvestiya" (Moskva),** 13 mart 1992-ci il. "Mayor Leonid Kravets : "Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü".

**"Valer aktuel" jurnalı** (Paris), 14 mart 1992-ci il. "Bu "muxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən, vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər".

**R.Patrik, İngiltərənin "Fant men news" teleşirkətinin jurnalisti (hadisə yerində reportaj) :** "Ermənilərin Xocalıda törətdikləri vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz".

**Qeyd edək ki, hər il fevralın 26-da saat 17:00-da respublikamızda Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.**

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

2_Layout 1 27.02.2018 10:50 Page 1



# POLKOVNİK TOFİQ HÜSEYNOV DAXİLİ QOŞUNLAR KOMANDANININ 1-Cİ MÜAVİNİ-QƏRARGAH RƏİSİ VƏZİFƏSİNƏ TƏYİN EDİLİB



O, 1974-cü ildə Ermənistan SSR, Krasnoselsk rayonu, Ardanış kəndində anadan olub. 1992-1993-cü illərdə Azərbaycan Respublikasının Sərhəd Qoşunlarında müddətli həqiqi hərbi xidmət keçib.

1993-1997-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, 2013-2017-ci illərdə Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb.

1997-2003-cü illərdə Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunlarında sərhəd zastavası rəisinin müavini, sərhəd zastavası rəisi, sərhəd komendantlığının komendantının müavini - qərargah rəisi vəzifələrində xidmət edib.

2003-2008-ci illərdə Dövlət Sərhəd Xidmətində baş zabit, çevik hərəkət taborunun komandiri vəzifələrində xidmət edib.

2008-ci ildən 2017-ci ilə kimi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin əməliyyat şöbəsində baş zabit, hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini və hərbi hissə komandiri vəzifələrində xidmət edib.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 yanvar tarixli Sərəncamı ilə DİN-in Daxili Qoşunları Qərargahı rəisinin 1-ci müavini vəzifəsinə təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2018-ci il tarixli Sərəncamı ilə Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi vəzifəsinə təyin olunub.

Respublikanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edib. Xidməti fəaliyyətindəki uğurlu nəticələrinə görə müxtəlif mükafatlara layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin 10 mart 2010-cu il tarixli Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Ailəlidir, iki övladı var.

**Mətbuat xidməti**

# MİNNƏTDARLIQ MƏKTUBU...

Əsası Milli Lider Heydər Əliyev tərəfindən qoyulan Milli Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında son illər müasir standartlar səviyyəsində formalaşaraq regionun ən güclü ordusuna çevrilib. Ona görə ki, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı əsgər və zabitlərimizə diqqət və qayğısını əsirgəmir, davamlı olaraq cəbhə bölgələrinə səfərlər edir, onların sosial-məişət şəraiti ilə yaxından tanış olur.

Bu səbəbdən də xalqımızın vətənpərvər oğulları Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyə ruh yüksəkliyi ilə gəlir, üzərilərinə düşən tapşırıqları dəqiq yerinə yetirməyə can atırlar.

Ali Baş Komandanın şəxsi heyətə göstərdiyi bu yüksək diqqət biz valideynləri də sevindirir.

Oğlum Aslanov Rəşad müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edir. Ötən ilin dekabr ayında oğlumun səhhətində bır sıra problemlər yaranmışdı. Dərhal o, qoşunların Bakı şəhərində yerləşən Hərbi Qospitalına yerləşdirildi. Qoşunların peşəkar həkimləri oğlumu ölümün caynağından qurtara bildilər.

Bu gün oğlumun səhhətinin yaxşılaşması, özünü gümrah hiss etməsi bir daha biz valideynlərdə əminlik yaratdı ki, dövlətimiz hər bir hərbi qulluqçusuna böyük önəm verir.

Bir hərbçi valideyni kimi, başda Ali Baş Komandanımız cənab İlham Əliyev olmaqla, Daxili İşlər Nazirliyinin rəhbərliyinə, Daxili Qoşunların Komandanlığına, eləcə də Hərbi Qospitalın bütün tibb personalına dərin minnətdarlığımı bildirirəm.

**Aslanov Məzahir Dəmir oğlu,**
**Göygöl şəhər sakini**

# HƏRBİ HİSSƏNİN YARADILMASININ 29-cu İLİ TAMAM OLDU

***Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik məktubu şəxsi heyətə çatdırılıb***

***Fevralın 23-də Daxili Qoşunların şərəfli döyüş yolu keçmiş 16075 saylı hərbi hissəsinin yaranmasının 29-cu ildönümü təntənəli şəkildə qeyd olunub.***

Mərasimdə Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri ehtiyatda olan polkovnik Fərhad Süleymanov, Daxili Qoşunların Veteranlar Şurasının sədri ehtiyatda olan polkovnik Çingiz Daşdəmirov, şuranın üzvləri və digər qonaqlar iştirak ediblər.

Tədbir başlamazdan əvvəl qonaqlar hərbi hissənin ərazisində torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə tər gül dəstələri qoyublar. Sonra Milli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni ifa olunub.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının təbrikini şəxsi heyətə çatdırmaq üçün hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Məzahir Seyidova söz verilib.

Təbrikdə hərbi hissənin digər hüquq-mühafizə qurumları ilə birgə Sumqayıt şəhərində cinayətkarlıqla mübarizədə, ictimai asayişin, daxili sabitliyin qorunub saxlanılmasında yüksək fəallıq göstərdiyi qeyd olunub. Ali Baş Komandanın Daxili Qoşunlara diqqət və qayğısının önə çəkildiyi təbrik məktubunda xüsusi olaraq vurğulanıb ki, göstərilən bu etimadın daima layiqli xidmətlə doğrulması, döyüş hazırlığının daha da yüksəldilməsi şəxsi heyətin qarşısında duran ən mühüm vəzifələrdəndir.

Daha sonra hərbi hissə komandiri mayor Emil Rüstəmov mərasim iştirakçılarına hərbi hissənin 29 ildə keçdiyi döyüş yolu haqqında geniş məlumat verib. Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəxsi heyət xüsusi şücaət və fədakarlıq nümunələri göstərmişdir. Hərbi hissənin 16 nəfər hərbi qulluqçusu şəhid olmuş, 3 nəfər isə itkin düşmüşdür. Daxili Qoşunların ilk şəhidi çavuş Hətəmxan Babayev və Daxili Qoşunların Milli Qəhrəmanı əsgər Ruslan Muradov məhz bu hərbi hissədə xidmət etmişlər.

Hərbi hissə komandiri döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün yaradılan hərtərəfli şəraitə, şəxsi heyətə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını da bildirib.

Mərasimdə çıxış edən digər qonaqlar da ildönümü münasibətilə şəxsi heyətə







təbriklərini çatdıraraq, Daxili Qoşunlarda gedən yüksək inkişafın şahidi olduqlarını söyləyib, bunu Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun diqqət və qayğısının təzahürü kimi qiymətləndiriblər.

Hərbi hissənin yaranmasının 29-cu ildönümü münasibətilə xidmətdə xüsusi fərqlənmiş, yüksək peşə hazırlığı, nümunəvi intizamı ilə fərqlənən hərbi qulluqçular da mükafatlandırılıblar.

Mərasim Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin konsert proqramı ilə davam etdirilib.

**baş leytenant X.Hacızadə**

# MƏSULİYYƏT, AYIQ-SAYIQLIQ, ÇEVİKLİK VƏ QƏTİYYƏT...

***Hərbi hissədə yaradılmış hərtərəfli şərait hərbi qulluqçularımızda bu keyfiyyətlərin formalaşmasına zəmin yaradır.***








Son illər ərzində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının respublikamızın müxtəlif bölgələrində müasir standartlara cavab verən yeni hərbi hissələri yaradılıb. Bu, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi ən yüksək diqqət və qayğının bariz nümunələrindəndir.

Daxili Qoşunların yeni yaradılmış hərbi hissələrindən biri də 17071 saylı hərbi hissədir. Hərbi hissədə xidməti-döyüş fəaliyyəti müəyyən edilmiş vəzifələrə uyğun həyata keçirilir. Dislokasiya yerində əməliyyat şəraitinin dərindən öyrənilməsi, vəziyyətə uyğun xidməti-döyüş fəaliyyətinin təşkilindən irəli gələn məsələlərin tənzimlənməsi, icra və hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin yaradılması istiqamətində tədbirlər diqqət mərkəzində saxlanılır.

Hərbi hissə komandirinin 1-ci müavini-Qərargah rəisi mayor Vüqar Novruzov diqqətə çatdırdı ki, Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanlığı tərəfindən göstərilən diqqət və qayğı ilə yanaşı, qarşımıza qoyulmuş yüksək tələbkarlıq hər birimizi vəzifələrimizin icrasına məsuliyyətlə yanaşmağa sövq edir. Yəni hərbi hissədə şəxsi heyətlə təlim-tərbiyə prosesi xidməti vəzifələrin uğurla icra olunmasına yönəldilib. Onun sözlərinə görə, şəxsi heyətdə yüksək döyüş ruhunun formalaşdırılması, təlim-tədris bazasının möhkəmləndirilməsi, bir sözlə, döyüş hazırlığının qorunub saxlanılması ən vacib məsələlərdəndir.

O, həmçinin, əlavə etdi ki, hərbi hissənin şəxsi heyəti dislokasiya yerində indiyədək keçirilmiş beynəlxalq, respublika və bölgə əhəmiyyətli kütləvi tədbirlərdə ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsində üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməkdədir. Xidmətə cəlb olunan şəxsi heyətin hazırlığı, geyim təminatı, xüsusi avadanlıq və vasitələrlə təchizatı, eləcə də avtomobil və xüsusi texnikaların vəziyyəti daima hərbi hissə komandanlığı tərəfindən nəzarətdə saxlanılır.

Polis əməkdaşları ilə birgə ictimai asayişin mühafizəsi istiqamətində xidmətə cəlb edilən hərbi qulluqçularımız vəzifə borclarına son dərəcə məsuliyyətlə yanaşaraq, ayıq-sayıqlıq, çeviklik və qətiyyət nümayiş etdirirlər. Əlbəttə ki, bütün bunlar şəxsi heyətlə təlim-məşq prosesinin tam və keyfiyyətlə keçirilməsindən xəbər verir.

Hərbi hissədə gün ərzində döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji vəziyyətin yüksək səviyyədə saxlanılmasına da xüsusi önəm verilir. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Xalid Hüseynov qeyd etdi ki, mənəvi-psixoloji hazırlıq planına uyğun olaraq, şəxsi heyətlə vaxtlı-vaxtında müvafiq mövzularda məşğələlər keçirilir. Məşğələlər zamanı hərbi qulluqçulara milli-mənəvi dəyərlərə hörmət, dövlət və dövlətçiliyimizə sədaqət, verilən tapşırıqlara qeyd-şərtsiz əməl olunması kimi məsələlər aşılanır. Şəxsi heyətə müsbət keyfiyyətlərin aşılanmasında mühüm rol oynayan ictimai-siyasi hazırlıq dərslərində Milli Lider Heydər Əliyevin həyatı, siyasi irsi öyrədilir, Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərbi qüdrətinin artırılması istiqamətində həyata keçirilən islahatlar barədə məlumatlar verilir.

Şəxsi heyətdə mənəvi kamillik və estetik mədəniyyətin yüksəldilməsi məqsədilə asudə vaxt təşkil olunur. Bunun üçün ayrılmış istirahət otaqlarında qəzet, jurnal və kitablar mütaliə edilir, stolüstü oyunlar oynanılır, hərbi vətənpərvərlik mövzularında filmlər göstərilir.

Şəxsi heyətin fiziki hazırlığı üçün qidalanma xüsusi yer tutur. Hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini mayor Oktay Təhməzovun sözlərinə görə, hərbi qulluqçular üçün normaya uyğun olaraq, gündə üç dəfə yemək hazırlanır. İstər kalori, istərsə də keyfiyyət baxımından yüksək səviyyədə hazırlanan xörəklər arasında milli mətbəximiz üstünlük təşkil edir. Yeməklərin çeşid müxtəlifliyi hər bir əsgərin ürəyincədir.

Hərbi hissədə müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış hamam-camaşırxana kompleksi də fəaliyyət göstərir. Camaşırxanada quraşdırılmış paltaryuyan və quruducu maşınlar şəxsi heyəti istənilən vaxt təmiz paltar və yataq dəstləri ilə təmin edir. Burada camaşırlar yuyulub, ütülənib çeşidləndikdən sonra yenidən bölmələrə təhvil verilir. Əsgərlər həftədə bir dəfədən az olmayaraq hamamdan istifadə edirlər.

Qazanxana ən son texnologiyaya əsaslanan avadanlıqla təchiz olunub ki, bu da şəxsi heyətin sosial şəraitinin müasir tələblərə cavab verdiyini sübut edir.

Şəxsi heyətin geyiminin səliqəliliyini qorumaq məqsədilə bölmələrdə məişət otaqları da yaradılıb.

Ümumiyyətlə, hərbi hissələrimizdə yaradılmış hərtərəfli şərait, şəxsi heyətin yüksək döyüş hazırlığı, mənəvi-psixoloji durumu Daxili Qoşunların ictimaiyyət arasında nüfuzunu daha da artırır. Hərbi hissədə xidmət edən hər bir hərbi qulluqçu dərindən dərk edir ki, dövlət və dövlətçiliyimizin gücləndirilməsində onların da üzərinə böyük məsuliyyət düşür. Milli Lider Heydər Əliyevin təbirincə desək, "Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!"

**"Əsgər"**

ŞƏHİDLƏRİMİZ

# QEYRƏTLİ OĞUL ZİRVƏSİ...

***Əsgər İsgəndərov Əlisgəndər Əbdüləhəd oğlu Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli Fəxri Fərmanı ilə təltif edilib (ölümündən sonra).***

Müharibə hər bir hərbi qulluqçu üçün amansız döyüş sınaqları ilə üz-üzə qalmaq deməkdir. Cəsarət, iradə, mənəvi əqidə və döyüş qabiliyyəti olmadan bu ağır sınaqlar qarşısında tab gətirmək çətindir. Şəhid hərbi qulluqçularımızın döyüş yoluna nəzər saldıqda, onların timsalında məhz bu keyfiyyətlərin birləşdiyi döyüşçü şəxsiyyətini təsəvvürümüzə gətiririk. Döyüşçü döyüş taleli insan anlamını ifadə edən sözdür. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə neçə belə döyüşçü odlu səngərlərdə yetişdi və Vətənin müdafiəsində fədakarlıq göstərdi.

Daxili Qoşunların şəhid hərbi qulluqçusu əsgər İsgəndərov Əlisgəndər Əbdüləhəd oğlunun döyüş yolu doğma torpağa və xalqa sədaqət nümunəsidir. O, 1973-cü il iyulun 23-də Bakı şəhərində anadan olub. İsgəndərovlar ailəsində 4 qız, 2 oğul övladı dünyaya göz açıb. Əlisgəndər həm valideynlərinə, həm də qardaş və bacılarına çox qayğıkeş olub.

Əlisgəndər Bakının Nəsimi rayonundakı 5 saylı orta ümumtəhsil məktəbində 8 il oxuyub. Sonra Dərnəgül qəsəbəsindəki 4 saylı texniki-peşə məktəbində təhsil alıb. Burada motorçu-qaynaqçı ixtisasına yiyələnib. Ailə üzvlərinin dediyinə görə, Əlisgəndər zəhmətkeşliyi ilə seçilib, öz peşəsində də bacarıqlı olub. O, hərbi xidmətə qədər Xəzər Gəmi Təmiri İstehsalat Birliyinin D.Bünyadzadə adına müəssisəsində öz ixtisası üzrə işləyib. Əmək kollektivində müsbət xarakterizə olunub.

1991-ci ilin dekabr ayında Əlisgəndər Nəsimi Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi Rayon İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Respublika Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına qəbul olunan ilk çağırışçıların arasında o da vardı. Daxili Qoşunların o vaxt tərkibində olmuş 6500 saylı hərbi hissədə (1993-cü ilin yanvar ayından Daxili Qoşunların tərkibindən çıxarılıb - Y.A.) hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Hərbi hissənin 3-cü bölüyündə atıcı vəzifəsində xidmət edib. Qeyd edim ki, 6500 saylı hərbi hissə öz təyinatı üzrə o dövrdə islah-əmək müəssisələri sistemində (hazırda penitensiar sistem - Y.A.) spesifik vəzifələr yerinə yetirib. Buna baxmayaraq, müharibə vəziyyəti olduğundan, hərbi hissədən müntəzəm olaraq döyüş bölgələrinə şəxsi heyət göndərilib. Əsgər kimi hərbi xidmət borcunu vicdanla yerinə yetirən Əlisgəndər özünün də ön cəbhəyə göndə-






rilməsinə can atırdı. Hərbi hissədə formalaşdırılmış xüsusi dəstənin tərkibində Ağdam-Ağdərə döyüş zonasına o da ezam olunmuş, torpaqlarımızın müdafiəsində dayanaraq, ilk müharibə sınaqlarından ləyaqətlə çıxmışdı. 1992-ci ilin mart ayının 12-də Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşə başlamışdı. Həmin ilin iyun ayından etibarən döyüş zonasında şəxsi heyətin cəmləşdirildiyi hərbi hissələr formalaşdırılırdı.

Əsgər Ə.İsgəndərov 1992-ci ilin iyul ayında 6500 saylı hərbi hissənin birləşmiş hərbi dəstəsinin tərkibində Tərtər rayonuna göndərilib. Buradan isə Ağdərə istiqamətində düşmənlə təmas xəttindəki ön mövqelərimizin müdafiəsinə cəlb edilib.

Torpaqlarımızın müdafiəsində cəsur döyüşçü kimi mətinlik göstərib, düşmənə qarşı qisas və nifrət hissi ilə vuruşub. Vətənpərvər bir əsgər kimi barıt qoxulu səngərlərdə öz iradə və qətiyyətini nümayiş etdirib.

Əlisgəndərin döyüş yolunun son hissəsi Tərtər-Ağdərə cəbhə bölgəsində keçib. 1992-ci ilin iyul ayının sonu və avqust ayının əvvəllərində (28.07.-07.08.1992-ci il) bu istiqamətdə şiddətli döyüşlər ara verməyib. Həm müdafiə, həm də hücum xarakterli bu qanlı döyüşlərdə onlarla şəhid olan, itkin düşən və yaralanan, kontuziya alan hərbi qulluqçularımız vardı. O gərgin şəraitdə həlak olmuş bəzi hərbi qulluqçularımızın ölüm tarixinin qeydiyyatında yol verilmiş xətaları başa düşmək olar. Tanış olduğum bəzi sənədlərdə Əlisgəndərin ölüm tarixi üst-üstə düşməsə də, ölüm haqqında şəhadətnaməyə və ölümün təsdiq edilməsi barədə müvafiq rəyin məzmununa əsaslansaq, o, 1992-ci il avqustun 5-də Möhrətaq kəndi (hazırda Kiçik Qarabəy adlanır, işğal altındadır-Y.A.) uğrunda gedən döyüşdə çoxsaylı qəlpə yaralarından həlak olub.

Ölüm haqqında şəhadətnamədə şəhidin meyitinin kəskin çürüməsi və yanması da qeyd edilib. Şəhid hərbi qulluqçumuz Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli Fərmanı ilə əsgər İsgəndərov Əlisgəndər Əbdüləhəd oğlu respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin olunmasında göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Fərmanı ilə təltif edilib (ölümündən sonra).

Paytaxtımızın Nəsimi rayonunda şəhidin ailəsi yaşayan binanın yerləşdiyi küçəyə onun adı verilib. Bununla əlaqədar Bakı Şəhər Xalq Deputatları Sovetinin Rəyasət Heyətinin (hazırda Bakı Şəhər İcra Hakimiyyəti) 19 mart 1993-cü il tarixli, 6/38 nömrəli qərarı var.

Əlisgəndərin şərəfli döyüş yolu barədə ötən illərdə respublikamızın ayrı-ayrı qəzetlərində məqalələr dərc olunub. 1997-ci ildə İ.Z.İsmayılovun müəllifi olduğu "Nəsimi rayonunun şəhidləri" kitabı işıq üzü görüb və bu nəşrdə də Əlisgəndər barədə yazı verilib.

2017-ci ildə dünyasını dəyişmiş Əlisgəndərin anası Nəcimə xanım son nəfəsinədək onun yoxluğu ilə barışmayıb.

Ahıl yaşında olan atası, ailənin digər üzvləri, onu yaxından tanıyanların, silahdaşlarının yaddaşında Əlisgəndər qeyrətli oğul kimi qalacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# "ƏN ÜMDƏ ARZUMUZ TORPAQLARIMIZIN DÜŞMƏN TAPDAĞINDAN AZAD OLUNMASIDIR!"

***Hər bir xalq şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğulları ilə fəxr edir, onların xatirəsinin əbədiləşdirilməsi üçün çalışır. Vətənin bölünməzliyi uğrunda canından keçmiş oğullarla yanaşı, Qarabağ savaşında mərdliklə döyüşmüş hərbçilərimizlə də qürur duyuruq. Daxili Qoşunların hərbi qulluqçusu baş gizir İntiqam Nəsibov da şərəfli döyüş yolu keçib.***

O, 1973-cü il noyabrın 14-də Qax rayonunun Zəyəm kəndində dünyaya göz açıb.

1990-cı ildə orta məktəbi bitirən İntiqam 1992-ci ildə ordu sıralarına çağırılıb. Müddətli həqiqi hərbi xidmətinə Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən 16075 (keçmiş 5478) saylı hərbi hissəsində başlayan baş gizir İ.Nəsibov hazırda Daxili Qoşunların 99713 saylı hərbi hissəsində zabit yataqxanasının komendantı vəzifəsindədir.

Uzun illər həqiqi hərbi xidmətdə olan baş gizir İ.Nəsibov həyatının gənclik illərini səngərdə, düşmənlə mübarizəyə həsr edib. Müharibənin dəhşətlərindən ürək ağrısı ilə danışan hərbi qulluqçu döyüş yolunun 1992-ci ilin



may ayında Ağdam rayonunun Papravənd kəndində başlandığını söylədi. Milli Qəhrəman baş leytenant Fəxrəddin Nəcəfovun komandiri olduğu bölükdə Ruslan Muradov, Elpərəst Hüseynov kimi cəsur Vətən oğulları ilə birlikdə döyüş yolu keçdiyini qürurla bildirdi. Tariximizin qanlı səhifəsinə çevrilmiş ölüm-dirim savaşı zamanı şəxsi heyət arasında olduqca güclü döyüş ruhu olduğunu vurğuladı. Aradan uzun zaman keçməsinə baxmayaraq, hər şeyi indiki kimi xatırlayan müsahibim Ağdam-Ağdərə döyüş bölgəsində Papravənd, Qalaycılar, Xatınbəyli, Baş Güneypəyə, Qazançılar, Xramord (Pirlər), Mərzili, Aranzəmin kəndləri istiqamətlərində gedən çətin döyüş əməliyyatlarında iştirak edib. Qalaycılar kəndində gedən ağır döyüşlər zamanı təkbaşına ermənilərin bir zabitini və iki əsgərini məhv edib: "Düşmən üzərinə əzmkarlıqla gedən bölüyümüzün şəxsi heyəti təhlükəli vəziyyətlərə düşsə də, xilas olmağı bacarıb. Canyataq, Gülyataq kəndlərinin müdafiəsi zamanı 5 gün mühasirədə qaldıqdan sonra bizim tərəfin əks hücumu nəticəsində qurtula bildik".

1993-cü ildə Xramord (Pirlər) kəndinə hücum zamanı düşmən gülləsinə tuş gələn döyüşçümüz ağır yaralanaraq, kəllə-beyin travması alıb və uzun zaman Daxili İşlər Nazirliyinin qospitalında müalicəsini davam etdirib.

25 ildən artıq müddət keçsə də, həm yaddaşında, həm də səhhətində silinməz izlər buraxan Qarabağ müharibəsində iştirak etməsilə qürur duyan hərbi qulluqçumuz torpaqlarımızın bütövlüyü uğrunda son damla qanınadək vuruşmağa hazır olduğunu dilə gətirdi: "Düşünürəm ki, bu gün hər birimizin ən ümdə arzusu torpaqlarımızın düşmən tapdağından azad olunmasıdır. İgidlərimizin qanıyla yuyulan bu torpaqdan düşmənə pay olmaz, məhz qələbə günü bütün şəhidlərimizin ruhu rahatlıq tapacaq!".

**leytenant N.Ağayeva**

# "KOMENDANT BÖLÜYÜNDƏ XİDMƏT ETMƏKDƏN QÜRUR DUYURAM!"

25031 saylı hərbi hissənin intizamı, nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından olan çavuş Azad Mikayılov 1998-ci il oktyabrın 10-da Quba rayonunun Növdün kəndində dünyaya gəlib. 2016-cı ildə Quba rayonu 2 saylı tam orta məktəbi bitirib. Elə həmin ilin oktyabr ayından Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb.

Xidmətin ilk günlərindən nizam-intizamı ilə diqqət çəkən A.Mikayılov keçirilən məşğələlərdə fəal iştirak edir. Fiziki və atəş hazırlığından yüksək nəticələr əldə etdiyinə, tədris dövrü ərzində müsbət cəhətdən fərqləndiyinə görə kiçik komandirlər hazırlayan tədris kursuna qəbul edilib. O, kursu müvəffəqiyyətlə başa vuraraq "çavuş" hərbi rütbəsinə layiq görülüb. Hazırda komendant bölüyündə manqa komandiri vəzifəsində xidmətini davam etdirir.

Çavuş A.Mikayılov daim öz üzərində çalışan, özünə qarşı tələbkar, xidmətə ciddi münasibətilə yoldaşlarına nümunə olan hərbi qulluqçu kimi xarakterizə olunur. Komendant bölüyündə xidmət etdiyini qürur hissi ilə ifadə edən hərbi qulluqçumuz vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. Silahın taktiki-texniki xüsusiyyətlərini yaxşı bilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.



Hərbçi ləyaqətini hər şeydən üstün tutan çavuş A.Mikayılovun ən böyük arzusu müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunaraq, bütün həyatını Vətənə xidmətə həsr etməkdir.

Biz də hərbi qulluqçumuza xidmətində nailiyyətlər arzulayırıq.

**leytenant N.Ağayeva**

# DAXİLİ QOŞUNLAR İDMAN NAİLİYYƏTLƏRİ İLƏ HƏR ZAMAN ÖNDƏDİR

"2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, yanvarın 27-də Daxili Qoşunların birinciliyi uğrunda ağırlıq çəki daşı qaldırma üzrə 99713 saylı hərbi hissədə yarış keçirilib. Yarışda AHM-dən, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 6 komanda olmaqla 42 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**Ağırlıq çəki daşı qaldırma üzrə:**

**65 kq. çəki dərəcəsində**

I yer - baş çavuş Akif Müslümov (67987 saylı hərbi hissə)
II yer - çavuş Səid Məmmədov (16075 saylı hərbi hissə)
III yer - gizir Eldar Məmmədov (99713 saylı hərbi hissə).

**70 kq. çəki dərəcəsində**

I yer - əsgər Anar Allahverdiyev (99713 saylı hərbi hissə)
II yer - baş çavuş Əsgər Əhmədov (16075 saylı hərbi hissə)
III yer - əsgər Amil Əliyev (67987 saylı hərbi hissə).

**75 kq. çəki dərəcəsində**

I yer - çavuş Elvin Dövlətov (99713 saylı hərbi hissə)
II yer - çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə)
III yer - çavuş İsmayıl Gülməmmədov (16075 saylı hərbi hissə).

**80 kq. çəki dərəcəsində**

I yer - baş çavuş Elşən Novruzov (16075 saylı hərbi hissə)
II yer - əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə)
III yer - kiçik çavuş Elvin İsmayılov (16076 saylı hərbi hissə).

**85 kq. çəki dərəcəsində**

I yer - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə)
II yer - kiçik çavuş Kamran Qarayev (16075 saylı hərbi hissə)
III yer - əsgər Etibar Fətəliyev (99713 saylı hərbi hissə).

**90 kq. çəki dərəcəsində**

I yer - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
II yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə)
III yer - əsgər Asim Azayev (99713 saylı hərbi hissə).

**+90 kq. çəki dərəcəsində**

I yer - əsgər Vüqar İsmayılov (99713 saylı hərbi hissə)
II yer - gizir Xalid Məmmədov (67987 saylı hərbi hissə)
III yer - gizir Fərhad Zaxarbəyov (67987 saylı hərbi hissə).



**Qol güləşi üzrə:**

**65 kq. çəki dərəcəsində**

I yer - gizir Elnur Vəliyev (99713 saylı hərbi hissə)
II yer - kursant Elxan Hüseynov (Ali Hərbi Məktəb)
III yer - kursant Cavid Babazadə (Ali Hərbi Məktəb).

**70 kq. çəki dərəcəsində**

I yer - baş çavuş Əsgər Əhmədov (16075 saylı hərbi hissə)
II yer - kursant Aqşin Mütəllimov (Ali Hərbi Məktəb)
III yer - əsgər Anar Allahverdiyev (99713 saylı hərbi hissə).

**75 kq. çəki dərəcəsində**

I yer - baş çavuş Emin Əsədov (Ali Hərbi Məktəb)
II yer - çavuş İsmayıl Gülməmmədov (16075 saylı hərbi hissə)
III yer - çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə).

**80 kq. çəki dərəcəsində**

I yer - əsgər Rəşad Məmmədov (25031 saylı hərbi hissə)
II yer - əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə)
III yer - baş əsgər Nəcməddin Əsgərov (16077 saylı hərbi hissə).

**85 kq. çəki dərəcəsində**

I yer - əsgər Etibar Fətəliyev (99713 saylı hərbi hissə)
II yer - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə)
III yer - baş çavuş Elvin Eminov (67987 saylı hərbi hissə).

**90 kq. çəki dərəcəsində**

I yer - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)
II yer - əsgər Asim Azayev (99713 saylı hərbi hissə)
III yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə)

**+90 kq. çəki dərəcəsində**

I yer - çavuş Rasif Kübərov (99713 saylı hərbi hissə)
II yer - gizir Xalid Məmmədov (67987 saylı hərbi hissə)
III yer - gizir Fərhad Zaxarbəyov (67987 saylı hərbi hissə).

***Komanda birinciliyində, 99713 saylı hərbi hissə kürsünün ən yüksək pilləsinə layiq görülüb. 67987 və 16075 saylı hərbi hissələr isə müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşdürüblər.***

***

Daxili İşlər Nazirliyinin müvafiq əmrinə əsasən, fevralın 19-dan 21-dək daxili işlər orqan və hissələri arasında Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda "Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi"nə həsr olunmuş güc çoxnövçülüyü üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib.




Daxili Qoşunların yığma komandası 10 idmançı ilə yarışda təmsil olunub.

Ağırlıq çəki daşı qaldırma üzrə şəxsi birincilikdə 99713 saylı hərbi hissənin hərbi qulluqçuları - əsgər Anar Allahverdiyev 70 kq, çavuş Elvin Dövlətov 75 kq, 16075 saylı hərbi hissənin hərbi qulluqçuları - kiçik çavuş Təbriz Məmmədov 80 kq, əsgər Müşviq Hüseynov 90 kq çəki dərəcələrində 1-ci, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Əli Bayramov 85 kq çəki dərəcəsində 2-ci, 16075 saylı hərbi hissənin hərbi qulluqçuları - baş çavuş Elşən Novruzov 80 kq, kiçik çavuş Kamran Qarayev 85 kq çəki dərəcələrində 3-cü yeri tutublar.

Qol güləşi üzrə şəxsi birincilikdə isə 67987 saylı hərbi hissənin hərbi qulluqçusu baş əsgər Ruslan Kübərov 90 kq çəki dərəcəsində 1-ci, 70 kq dərəcəsində 99713 saylı hərbi hissənin hərbi qulluqçuları - gizir Elnur Vəliyev 2-ci, əsgər Əsgər Allahverdiyev 3-cü yerə layiq görülüblər.

Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yeri qazanıb.

**Mətbuat xidməti**

*AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100*

# ŞƏRQİN İLK DEMOKRATİK RESPUBLİKASI...



Azərbaycanın bu gün dünya birliyində müstəqil dövlət kimi bərqərar olmasının, demokratik ənənələrin, insan hüquq və azadlıqlarının qorunmasının, söz və mətbuat azadlığına geniş meydan verilməsinin əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. Müsəlman Şərqində ilk parlament respublikası xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının formalaşdırılmasına nail olmuşdu. 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) xalqımızın tarixində mühüm bir hadisə idi. Çünki əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib olmuşdu.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandırmışdı. Bu, eyni zamanda, İslam dünyası üçün də mühüm hadisə hesab olunurdu. Çünki müsəlman Şərqində ilk dəfə olaraq müstəqil demokratik respublika yaranmışdı. Ulu Öndər bu tarixi hadisənin böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdı: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi".

Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqın milli oyanışının məntiqi yekunu kimi dəyərləndirmişdir: "Müsəlman Şərqində ilk parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi".

Azərbaycan Prezidentinin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı bir daha təsdiqlədi ki, müasir, müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Sərəncamda Şərqin ilk demokratik müsəlman dövlətinin fəaliyyəti də öz əksini tapıb: "1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü".

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin təntənə ilə qeyd edilməsi hər bir soydaşımız tərəfindən böyük rəğbətlə qarşılanır. Çünki bu gün hər bir ziyalı, ictimai-siyasi xadim, bütövlükdə ictimaiyyət nümayəndələri bilirlər ki, xalqımızın və milli dövlətçiliyimizin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb bir dövrdə meydana gəlmiş və çox çətin şəraitdə fəaliyyət göstərmişdir. AXC-nin yaşadığı 23 ay müddətində gənc dövlət başqa sahələrdə olduğu kimi, ölkənin ərazi bütövlüyünün qorunmasında da əhəmiyyətli işlər görmüşdü.

Müstəqilliyi möhkəmləndirmək, siyasi fəaliyyəti genişləndirmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı 1918-ci il iyunun 17-də Gəncəyə köçdü. Azərbaycanın müstəqilliyinin elan edildiyi vaxtda ölkədə anarxiya, özbaşınalıq, hərc-mərclik hökm sürürdü.

*(davamı gələn sayımızda)*

# HƏRBİ XİDMƏTDƏ VƏ İDMANDA FƏRQLƏNƏN ZABİT

***12565 saylı hərbi hissədə xidmət edən baş leytenant Cavanşir Yaqubov hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, 26 oktyabr 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olub. 2006-2007-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına 12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.***



Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinin məzunu olaraq, 2012-ci ildən zabit kimi hərbi xidmətini davam etdirir. Xüsusi təyinatlı dəstədə müxtəlif məsul vəzifələrə təyin edilib, hazırda qrup komandiridir. Döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi yönündə əzmkarlıq göstərir. Qrupun şəxsi heyətindən qayğısını əsirgəmir və onları uğurlu nəticələr əldə etməyə ruhlandırır. Funksional vəzifələrinin yerinə yetirilməsində dəqiqliyi, iclaçılığı, praktiki cəhətdən səriştəliliyi ilə fərqlənir.

Baş leytenant C.Yaqubov bacarıqlı və təcrübəli idmançıdır. İdmanın müxtəlif növləri - sərbəst güləş, cüdo, ağırlıq çəki daşı qaldırma ilə məşğul olur. Naxçıvan Muxtar Respublikasında keçirilmiş yarışlarda öz məharətini göstərərək, qələbələr qazanıb, müxtəlif növ medallara layiq görülüb. Beləliklə, Daxili Qoşunların və hərbi hissənin idman şərəfini təqdirəlayiq uğurları ilə qoruyub.

Nümunəvi xidmət edən hərbi qulluqçu kimi dəfələrlə mükafatlandırılan baş leytenant C.Yaqubov Daxili Qoşunların sıralarında olmasından qürur duyur. O, xüsusi təyinatlı dəstənin hərbi qulluqçusu olaraq, peşəkar hazırlığına ciddi diqqət yetirir, onun vətənpərvərliyi, zabit şərəfini uca tutması şəxsi heyətə örnəkdir.

**12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# ATLETİKANIN NƏZƏRİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ

Atletika yalnız yarışların proqramına daxil edilmiş idman növü deyil, o həmçinin sağlamlığın qorunması və bərpasının səmərəli vasitəsidir.

İdmanın ən sadə, lakin faydalı növlərindən biri olan qaçış tarixi mənbələrə əsasən, qədim Yunanıstanda yaranıb. Atletikanın yaranma tarixi qədim Olimpiya Oyunlarının yaranma tarixi ilə eyni dövrə təsadüf edir. Belə ki, hələ eramızdan əvvəl 776-cı ildən başlayaraq hər dörd ildən bir Olimpiya Oyunları keçirilir.

Atletika dünyanın ən qədim idman növlərindən biri olmaqla yanaşı, həm də digər fiziki hazırlıq tələb edən növlərin hərəkətverici qüvvəsini təşkil edir. Atletika beynəlxalq miqyasda çox böyük nüfuza malikdir. O yeriş, qaçış, tullanmalar, atmalar və çoxnövçülüyü özündə birləşdirən idman növüdür. Hazırda atletika idman növlərinin nəzəriyyəsini, tədris metodikasını və təcrübi məşğələlərin bütün xüsusiyyətlərini özündə əks etdirən elmi fənn kimi tədris edilir.

Atletikanın tədrisinin başlıca məqsədi müasir cəmiyyətin fiziki tərbiyə və idman qarşısına qoyduğu tələbləri yerinə yetirə biləcək yüksək ixtisaslı kadrların hazırlanmasıdır.

Müasir Olimpiya Oyunlarının proqramına atletikanın kişilərin yarışdığı 24, qadınların mübarizə apardıqları 23 növü daxil edilmişdir ki, bu da ayrı-ayrılıqda başqa idman növlərindən xeyli çoxdur. Atletika yalnız yarışların proqramına daxil edilmiş idman növü deyil, o həmçinin sağlamlığın qorunması və bərpasının səmərəli vasitəsidir. İnsanın təbii hərəkət növü olan yeriş, qaçış belə qədim zamanlardan orqanizmin müxtəlif funksiyalarının bərpası üçün dozalaşdırılaraq tətbiq edilən bir vasitəyə çevrilmişdir.

Atletikaya daxil olan hərəkətlər icra intensivliyi və məsafə müxtəlifliyi ilə fərqləndiyi üçün insan orqanizmə geniş təsir imkanlarına malikdir. Bu hərəkətlərin köməyi ilə qüvvə, sürət, dözümlülük, elastiklik, çeviklik kimi hərəki qabiliyyətlər inkişaf etdirilir, iradi keyfiyyətlər tərbiyə olunur. Atletika növlərinin orqanizmə təsir imkanlarının geniş olması bu hərəkətlərdən başqa idman növlərində hazırlıq vasitəsi kimi istifadə olunmasına imkan yaradır. Eyni zamanda, bu hərəkətlərdən sistemli şəkildə istifadə orqanizmin funksional imkanlarının genişlənməsinə təsir göstərir, yüksək iş qabiliyyətini təmin edir.

Atletikaya daxil olan hərəkətlər müxtəlif amillər əsasında təsnif oluna bilər. Hərəkətin quruluşu nöqteyi nəzərindən atletika hərəkətləri silsiləli, qeyri-silsiləli və qarışıq növlərə, fiziki keyfiyyətlərin təzahürü nöqteyi-nəzərindən isə sürət, qüvvə, sürət-güc, dözümlülük, xüsusi dözümlülük növlərinə bölünür. Bu qaçış növlərindən - yeriş, sprint qaçışı, estafet qaçışları, müxtəlif kross qaçış növləri və marafon qaçışı mövcuddur.

Qaçış - maneəsiz, sədlərlə, manelərlə, estafet və kros növlərinə bölünür. Eyni zamanda, insanda iradi keyfiyyətləri artırır və hərbi qulluqçuların döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmələrinə kömək edir.

Maneəsiz (qaçış yolunda) qaçış sürətin (sprint qaçışı), sürət dözümlüyünün (300 m - 800 m), xüsusi dözümlüyün təzahürünü tələb edir.

Sprint qaçışı stadionda və manejdə keçirilir. Qaçış məsafələri: 30, 60, 100 (K), 200 (K), 400 m (K) kişilər və qadınlar üçün eynidir.

Dözümlülük keyfiyyətlərinin təzahürünü tələb edən məsafələr:

Orta məsafələr: 800 (K), 1000, 1500 m (K), stadionda və manejdə kişilər və qadınlar üçün eyni məsafələrə keçirilir.

Uzaq məsafələr: 3000, 5000 (K), 10000 m (K) stadionda (yalnız 3000 m manejdə) keçirilir.

Daha uzaq məsafələr: 15, 21.0925, 42.195 (K) və 100 km.

Daxili Qoşunların hərbi qulluqçuları ildə bir dəfədən az olamayaraq ümumi inspeksiya yoxlamasına cəlb olunurlar. Bu yoxlama zamanı hərbi qulluqçular fiziki hazırlıqdan imtahanlara cəlb olunurlar. Yoxlamalar Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq təlimatının tələblərinə uyğun aparılır.

Normativlər 7 yaş qrupu arasında bölünür. Qaçış növlərinin müxtəlifliyini nəzərə alaraq, hər bir qaçış növünün özünəməxsus icra hərəkətləri və qaçış tempi mövcuddur.

Məsələn: Sprint qaçışı-sürətli qaçış növüdür və bu qaçışlar 50-400 metrə məsafəyə qədər keçirilir. Əlbəttə ki, ordu sıralarında daha çox 100 metr məsafəyə qaçış növü qeydə alınır, belə ki fiziki hazırlığın yoxlaması zamanı bu qaçış növündən daima bütün kateqoriyalı hərbi qulluqçulardan imtahanlar qəbul olunur.

Sprint qaçışı zamanı əzələlərini və quruluşunu nəzərə almaq lazımdır. Əzələ lifləri tez və yavaş tiplərə bölünür. Yavaş yığılan əzələlər mioqlobin piqmentlərinin rənginə uyğun olaraq qırmızı əzələlər enerjini oksigenin iştirakı ilə aerop yolla alır. Onlar oksigenin çatdırılmasını təmin edən çoxsaylı kapilyarlarla zəngindir.

*(davamı gələn sayımızda)*

**Daxili Qoşunların Ali Hərbi Məktəbinin Fiziki Hazırlıq kafedrası**

# KƏSKİN RESPİRATOR XƏSTƏLİKLƏR VƏ ONLARIN PROFİLAKTİKASI

Virusoloji xəstəliklər arasında rastgəlmə tezliyinə və orqanizmdə törətdiyi fəsadlara görə kəskin respirator xəstəliklər müasir təbabətin mühüm problemi olaraq aktuallığı qoruyur.

Bu xəstəliklər hava-damcı yolu ilə yayılan, tez bir zamanda geniş əhali kütləsini əhatə edən, mövsümi xarakter daşıyan, antroponoz infeksiyalar qrupuna daxildirlər. Həmin xəstəliklər əsasən viruslar tərəfindən törədilir, əksərən qısa inkubasion dövrə malikdir.

Bu xəstəliklərin əksəriyyəti oxşar simptomlar - təzahürlərlə özlərini büruzə verdikləri üçün onların diaqnostikası bəzən çətinləşir.

QRİP - hava-damcı yolu ilə yayılan, tənəffüs yollarının iltihabı və intoksikasiya ilə səciyyələnən xəstəlikdir.

Törədicisi - RNT tərkibli olub, otomiksoviruslara aiddir, epitelitrop (epiteli zədələmə) təsirə malikdir. Bu viruslar yuxarı tənəffüs yollarının selikli qişasının səthi epitelində çoxalırlar, nəticədə tənəffüs yollarının səthi epiteli məhv olur, selikaltı qat mühafizəsiz qalır, virus və onun toksinləri, bakteriyalar qana keçir, virusemiya baş verir və bu andan xəstəliyin kliniki əlamətləri meydana çıxır.

Xəstəliyin tipik və atipik gedişli klinik formaları vardır. Tipik forma hərarətin qalxması, intoksikasiya, əzələ ağrıları, zökəm, bəzən fibril qıcolma, işıqdan qorxma, baş ağrısı, ürəkbulanma və qusma ilə başlaya bilər.

Atipik formada sadalanan simptomlar ya qismən rast gəlinir, ya da zəif nəzərə çarpır.

Qripdə tənəffüs yollarının müxtəlif



səviyyələrdə zədələnməsi faringit, zökəm, traxeit, bronxitlə özünü büruzə verir. Xəstəliyin ağırlığı bir neçə faktordan asılıdır:

- xroniki xəstəliklərin olması, xəstənin yaşı, immun vəziyyəti və s;
- virusun tipi və tipə qarşı immunitetin səviyyəsi.

Qripdə qızdırma davamlı olmur. Adətən 1-5 gündən sonra normaya enir. Ağırlaşmalar zamanı temperatur adətən yenidən yüksəlir, yəni hərarət əyrisi ikidalğalı olur.

Uşaqlar və yaşlı şəxslər çox vaxt qripin ağır və ildırımvari formaları ilə xəstələnirlər və həmin xəstələr mütləq təcili şəkildə qospitalizə olunmalıdırlar.

Atipik qrip adətən idmançılarda, fiziki sağlam şəxslərdə təsadüf edilir və ağırlaşma vermir.

Qripin ən çox rast gəlinən ağırlaşmaları bronxit və pnevmoniyadır.

Qripdən ölən xəstələrin 60 %-də pnevmoniya tapılır. Burunun əlavə ciblərinin iltihabı da tez-tez rast gəlinir, haymorit, frontitlər inkişaf edir. Uşaqlarda qırtlağın ödəmi - inaq kimi qorxulu hal törədir.

Qrip orqanizmin müqavimətini zəiflətməklə xroniki xəstəlikləri - dizenteriya, revmatizmi, tonzilliti, vərəm pnevmoniyanı və s. aktivləşdirir. Bəzi xəstələrdə meningit, nevritlər, nevralgiya və hətta miokardit inkişaf edə bilər.

KRX-lərindən paraqrip, adenovirus infeksiyası, rinovirus infeksiyası, respirator sinsitial infeksiya və s. oxşar əlamətlərlə gedən kəskin virus xəstəlikləridir.

***Profilaktikası*** – orqanizmin müqavimətinin artırılması, intranazal vaksinlərin istifadəsi, interferon, oksolin məlhəmi, remantadin preparatlarının tətbiqi, respiratorlardan istifadə olunması, otaqların havasının dəyişdirilməsi, dezinfeksiya işləri və s. mühüm yer tutur.

KRX-lərin tibb məntəqəsinə müraciəti zamanı ambulator müalicə təyin edilməklə onların bölüyə qaytarılması infeksiyanın daha geniş vüsət almasına və xəstəliyin fəsadlaşmalarının (bronxitlər, pnevmoniya, meningitlər, eksudativ plevritlər) əmələ gəlməsinə yol açır.

KRX-lərin qarşısını almaq məqsədilə mövsümə uyğun şəkildə yataqxanalarda istilik rejiminin təmin olunması, şəxsi heyətin yerləşməsi zamanı sıxlığa yol verməmək, sanitar - gigiyenik qaydalara riayət etmək, otaqların havasının vaxtaşırı dəyişdirilməsi, qidalanma zamanı vitaminlərlə zəngin (xüsusən C vitamini) ərzaq və tərəvəzlərin rasiona daxil edilməsi, soyuqdəymə hallarının qarşısının alınması, eləcə də orqanizmin möhkəmləndirilməsi vacib amillərdən hesab olunur.

Beləliklə, bütün sadalananlara vaxtında düzgün riayət edilməzsə, hərbi qulluqçuların kütləvi şəkildə xəstələnməsinə və döyüş qabiliyyətinin aşağı düşməsinə səbəb ola bilər.

**12576 saylı hərbi hissə-hərbi qospitalın yoluxucu xəstəliklər şöbəsinin rəisi t/x polkovnik-leytenantı Əjdər Ağacanov**

# Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik-leytenant Kamran Məhərrəmova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ali Hərbi Məktəbin komandanlığı kapitan Vüqar Mustafayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı baş leytenant Ramil Abdurəhimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin komandanlığı əsgər Bəhram Rufullayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000